**Cavid Cəfərov**

# İDRAK XƏZİNƏSİ

***Kitab və mütaliə haqqında aforizmlər, iqtibaslar, hikmətli sözlər***

MÜASİR ELMİ ƏDƏBİYYAT SERİYASI

Bakı- 2013

UOT: 030 (089.3)

**Tərtibçi:**

**CAVİD CƏFƏROV**
*tarix üzrə fəlsəfə doktoru*

**Rəyçi:**

**KNYAZ ASLAN**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**İdrak xəzinəsi:** kitab və mütaliə haqqında aforizmlər, iqtibaslar, hikmətli sözlər / Tərt. C.A.Cəfərov.- Bakı: Proqres, 2013.-88 səh.

**ISBN: 978-9952-8207-6-8**

© *Cavid Cəfərov*

## **Hörmətli oxucu!**

*"İdrak xəzinəsi" adlı bu nəşrə mütaliə, kitab, kitabxanalar haqqında aforizmlər, iqtibaslar, hikmətli sözlər daxil edilib. İlk dəfədir ki, bu səpkidə aforizmlər ayrıca kitab şəklində nəşr olunur. Ümidvarıq ki, bu nəşr kitaba, mütaliəyə hörmət edən hər bir şəxsin zövqünü oxşayacaq və istinad mənbəyinə çevriləcəkdir.*

***Tərtibçidən***

***Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir!***

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

Kitabxana xalq, millət üçün, cəmiyyət üçün
müqəddəs bir yer, mənəviyyat, bilik,
zəka mənbəyidir.

***Heydər Əliyev***

Kitab zamanın dalğaları üzərində səyahət edən
və öz qiymətli yükünü nəsillərdən-nəsillərə
daşıyan fikir gəmisidir.

***Frensis Bekon***

Elə adamlar axtarın ki, onlarla söhbət
yaxşı kitab oxumağa bərabər olsun. Elə kitablar
da axtarın ki, mütaliəsi filosoflarla söhbətə
dəysin.

***Ə.H. Bəhmənyar***

Yaxşı kitabları bu gün oxuyun,
sabah vaxtınız olmaya da bilər.

***İsaak Barrou***

Yaxşı kitab çox qiymətli xəzinədir.

***Həsən bəy Zərdabi***

Axmaqlarla oturub-durmaqdansa,
kitabla tənha qalmaq yaxşıdır.

***Qasım bəy Zakir***

Gil qabın dəyərini səsi ilə, insanın dəyərini isə ağzından çıxan sözü ilə yoxlayırlar.

***Əbül Fərəc***

Kitablar bizim ocaqlarımızdakı od kimidirlər: biz onları kimdənsə götürür, ocağımızı qalayır, sonra başqalarına ötürürük. Nəticədə onlar hamının malına çevrilir.

***Volter***

“Sənin muradın o vaxt kamilən bitər ki, bizim, hətta çobanlarımız da prus çobanları kimi oxumaq, yazmaq bilələr və ünas taifəmiz də oxumaq bilə".

***M.F.Axundovun H.Zərdabiyə yazdığı məktubdan***

Kitab-sənin ilk dostundur.

***Mirzə Ələkbər Sabir***

Bədii əsərin ömrü onun xalq tərəfindən bəyənilməsindən asılıdır.

***Səməd Vurğun***

Ən yaxşı kitab yaxşı nitq kimidir-sizi güldürür, düşünməyə vadar edir, ağladır, əyləndirir. Bu ən yaxşı ardıcıllıqdır.

***Madlen Olbrayt***

Ağıllı qonşun yoxdursa, kitabla söhbət et.

***Azərbaycan atalar sözü***

Dünyada kitabdan əziz dost yoxdur .

***Əlişir Nəvai***

Kitab illər keçdikcə daha xoş gələrsə, bu onun yaxşı olmasının əlamətidir.

***Georq Lixtenberq***

Ən yaxşı kitab həqiqəti daha çox ehtiva edən kitabdır.

***Pyer Buast***

Kitab toplamaq yaxşı işdir,
onları oxumaq isə daha faydalıdır.

***Françesko Petrarka***

Kitab oxumayan insan ölüdür.

***Tomas Cefferson***

Kitablar sizi əsrlər əvvəl dünyadan köçmüş dahilərlə görüşdürür.

***Rene Dekart***

Görsəniz ki, dostunuz qalmayıb, kitablara üz tutun.

***Con Drayden***

Bir insanın fikirləri kitabın köməyi ilə milyonlarla insana çatdırıla bilər.

***Albert Eynşteyn***

Oxunacaq ən böyük kitab insandır.

***Hacı Bəktaş Vəli***

İnsanlığı tədqiq etməyin ən yaxşı
yolu mütaliə etməkdir.

***Oldos Leonard Haksli***

Kitab insan ruhunun qidasıdır.

***Jül Simon***

İdmanın bədənə göstərdiyi təsiri kitab
beyinə göstərir.

***Edvard Hant***

Kitab həyatın ən uzaq və qaranlıq yollarına
nur bəxş edən əfsanəvi çıraqdır.

***Andrey Upit***

Kitab müxtəlif insanların düşüncələrini vəhdət halında birləşdirən və onların arasında sıx ünsiyyət yaradan mənəvi körpüdür.

***Samuel Smayls***

Kitablar səssiz müəllimlərdir.

***Peter Gille***

Kitab həyatın ən zəruri ehtiyaclarından biridir.

***Karl İmmerman***

Kitab gənclərin yol bələdçisidir.

***Alfred Teylor***

Dəfələrlə oxunmağa layiq olmayan kitabı
heç bir dəfə də oxumağa dəyməz.

***Karl Veber***

İlk dəfə yeni bir kitab oxumaqdansa, oxunmuş
bir kitabı təkrar oxumaq
daha yararlıdır.

***Lord Dudley***

Bir adama kitab satdığın zaman ona
yalnız 500 qram kağız, mürəkkəb və yapışqan
satmış olmursan. Ona tamamilə yeni bir
həyat bəxş edirsən.

***Kristofer Morley***

Ya Rəbb, mənə kitabla dolu bir ev və çiçəklə dolu bir bağça versən yetər.

***Konfusi***

Yaxşı kitab müəllifin bəşəriyyətə hədiyyəsidir.

***Jozef Addison***

Kitab ağlın dərmanıdır.

***Ovidius***

Yaxşı kitablar həqiqi dostlarımızdır.

***Frensis Bekon***

Bir insanın dəyəri oxuduğu
kitablarla ölçülür.

***Herbert Spencer***

Kitab ruhun dərmanıdır.

***Yapon atalar sözü***

Bir insana oxumaq eşqi və onu təmin
edəcək kitab verin, əmin olun ki, bu adam
xoşbəxt olacaq.

***Con Herşel***

Kitablar insanların yolunu işıqlandırır.

***Çin atalar sözü***

Bütün boş vaxtınızı qəzetlə keçirməyin, ona ayıracağınız vaxtın yarısını sizə yeni şeylər öyrədəcək kitablara ayırın.

***Deyl Karneqi***

Xalqları yüksəldən zəngin kitablardır.

***Anatol Frans***

Kitabsız yaşamaq kor, kar və dilsiz yaşamaqdır.

***Seneka***

Hər dövrün öz kitabı var.

***Ərəb atalar sözü***

Kitabların düşmənləri insanlarınkı ilə eynidir:
atəş, nəm, zaman və içindəkilər.

***Pol Valeri***

Kitabların yandırıldığı yerdə
insanlar da yandırılır.

***Henrix Heyne***

Kitabları iki qrupa ayırmaq mümkündür: günün
kitabı və bütün zamanların kitabı.

***Con Ruskin***

Mən kitabı tacdan üstün tuturam.

***Şekspir***

Kitabsız böyüyən uşaq, susuz
böyüyən ağaca bənzər.

***Çin atalar sözü***

Həyatı boyu yalnız bir kitab oxumuş
insanlardan qorxun.

***Latın atalar sözü***

Yaxşı kitab öyünməyə layiqdir.

***Alman atalar sözü***

Yetişən zəkaları kitablarla bəsləməyən xalqlar
məhvə məhkumdur.

***Ovidius***

Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi və ağlı, dünya və insanlıq sevgisiylə dolduracaq.

***Maksim Qorki***

Kitablarım mənə kifayət edəcək qədər böyük bir krallıqdır.

***Şekspir***

Mən kitabları deyil, kitablar məni yaratdılar.

***Mişel de Monten***

Kitab yeganə ölümsüzlükdür.

***Rufus Çoate***

Az bildiyini başa düşmək üçün
çoxlu oxumaq lazımdır.

***Mişel Monten***

Əxlaqa uyğun və ya zidd kitab olmur.
Kitab ya yaxşıdır, ya pis.

***Oskar Uayld***

Kitablar solmayan bitkilərdir.

***Herrik***

Kitablar dəyərli başların abidələridir.

***Uilyam Davenant***

Ümidlə açılıb bilik qazanmaqla bitən
bir kitab, yaxşı kitabdır.

***Alkot***

Kitab heç vaxt aldatmayan bir yoldaşdır.

***Jilber dö Pikserekur***

Yaxşı kitab sadiq dostdur. Ondan bezəndə
hirslənmir, məsləhət istəyəndə aldatmır.

***Türk atalar sözü***

Kitablar olmasaydı çoxdan ümidsizliyə
qapılmışdım.

***Artur Şopenhauer***

Əvvəllər kitabı yazıçılar yazardılar, oxucular isə oxuyardılar. İndi isə kitabı oxucular yazır, amma kimsə oxumur.

***Oskar Uayld***

Yaxşı kitabı ilk dəfə oxuyanda bizə elə gəlir ki, yeni dost qazanmışıq. Həmin kitabı təkrar oxumaq köhnə dostu yenidən görməkdir.

***Volter***

Yalnız ağıl və idrakın hökmünə tabe edilən istedad, həqiqətən gözəl bədii kitablar yarada bilər.

***N.Bualo***

Kitab sahilsiz dəniz, biliklər ümmandır.

***Aybek***

Kitablar torba kimidir, içinə
qoyulanların şəklini alar.

***Alber Kamyu***

Kitab təfəkkürün yorulmayan qanadlarıdır.

***Aybek***

Kitabı zövq almadan mütaliə etmək
yarımçıq iş görmək kimidir.

***P. Fikat***

Kitab qəlbə həmdəmdir.

***A.S. Puşkin***

Mütaliə-həyatda faydalı olmaq
naminə edilməlidir.

***Frensis Bekon***

Kitablar bizi ötən əsrlərin mənəvi varisi edir.

***Nəcəf bəy Vəzirov***

Kitab insan ruhunun müqəddəs yazısıdır.

***Maksim Qorki***

Kitabsız ev ruhsuz bədənə bənzər.

***Siseron***

Dahi insan- bəşəriyyət kitabının sərlövhəsidir.

***F.Hebber***

Kitab zəmanənin həyatıdır.

***Belinksi***

Kitabları evinizə bəzək üçün yığmayın, çünki o zaman  kitabla evinizdəki digər əşyalar arasında fərq qalmaz.

***Con K. Banqs***

Kitabları sevirsənsə bütün həyatın boyunca məsud olacaqsan.

***Jül Klareti***

Mümkün olsaydı, hər qarış torpağa buğda əkirmiş kimi kitab əkərdim.

***Horas***

Kitab sevgisi, sevgilərin ən gözəlidir.

***Jül Klareti***

İnsanlar ölür, kitablar yaşayır.

***Jül Klareti***

Kitablar da dostlar kimi seçilməlidir.

***Jül Klareti***

Kitab ağıl öyrədən bir dostdur.

***Jül Klareti***

Kitablar yaşadıqca “keçmiş”
anlayışı olmayacaq.

***Bulver Lütton***

Kitab dilsiz danışan dostdur.

***Holland atalar sözü***

Kitab içimizdəki donmuş
dənizə endirilmiş bir baltadır.

***Frans Kafka***

İnsan hər kitabdan yeni bir şey öyrənir.

***Çin atalar sözü***

Heç bir yaxşı kitab birdən-birə
əsil üzünü göstərməz.

***Tomas Karleyl***

İnsan kitab oxuyarkən bir xizəyə minər və cəhalət buzunun üzərindən sürətlə keçər.

***Məhmət Murad İldan***

Kitablar zəkanın övladlarıdır.

***Conatan Svift***

Bir kitab ürəkdən yazılıbsa, başqa ürəklərə də çatacaq.

***Tomas Karleyl***

Kitab düşüncələrin məzarıdır.

***Henri Lonqfello***

Kitabdan yaxşı yol yoldaşı tanımıram

***H. Fletçer***

İçində heç nə tapılmayacaq
qədər pis kitab yoxdur.

***Balzak***

Kitablar kamil beyinlərin gələcək üçün
mumyalanmış formasıdır

***Con Milton***

Kitablar mənim sevgili dostlarım, gerçək yol
göstərənimdirlər. Çünki ikiüzlülük etməzlər.

***Alfons Dode***

Kitablarda hər zaman özümüzü tapırıq.

***Tomas Mann***

Otuz yaşına qədər kitabları sevməyən,
sonra da onları sevməz.

***Klarendon***

Əgər bizi yaşamağa və daha böyük şövqlə
düşünməyə vadar etmirsə, kitabların nə
əhəmiyyəti var?

***Henri Miller***

Kitablar onu yazan insanların ətrini daşıyır.

***Viktor Hüqo***

Yeddi köhnə kitab baş-başa versə,
mütləq yeni bir kitab yaranacaq

***Alman atalar sözü***

Sizə ən çox fayda verən kitab, sizi ən çox
düşündürən kitabdır.

***Teodor Uolker***

İdarəetməni oxuduğun kitablara vermə,
müstəqilliyini qoru!.

***Corc Xristof Lixtenberq***

Hər kitabın öz taleyi var.

***Teretianus Maurus***

Kitablar insanlara öz talelərini açmaq
üçün bacarıq verir.

***Anonim***

Yatmazdan əvvəl oxuya biləcəyiniz
yaxşı bir  kitabınız varsa, bundan böyük zövq
ola bilməz.

***V. Nabokov***

Sürətlə oxumayın! Mən “Hərb və sülh”ü belə
oxudum və təkcə onu öyrənə bildim ki,
hadisələr Çar Rusiyasında baş verir.

***Vudi Allen***

Bal dadlıdır, şəkər yeməli, kitab isə hər ikisindən də ləzzətli.

***Kiril Turof***

Əslində, hər bir kitab müəllifin dostları və sevdikləri üçün yazılır.

***Höte***

Kitabın xarici görünüşü belə ürəkdən üzüntünü qovur.

***Anonim***

Kitablar sadəcə ilham vermək üçündür…

***Ralf Emerson***

Bütün  kitablarımı sevirəm. Sevməsəydim yazmazdım.

***Əziz Nesin***

Kitablardan insanları tanıdım.

***Ruzvelt***

Oxuyaraq dünyamızı, tariximizi
və özümüzü kəşf edirik…

***Daniel J. Burstin***

Kitabsız yaşaya bilmərəm…

***Tomas Cefferson***

Yaxşı yazıçılıq dekorasiya deyil, memarlıqdır…

***Ernest Heminquey***

Hər oxucudan rəhbər olmaz, fəqət hər bir
rəhbər oxuyan olmalıdır…

***Henri Truman***

Gələcək-ehtiyacı olan şeyləri əldə edə bilmək
üçün nəyi oxumalı olduğunu bilənlərindir…

***Denis Vatley***

Yaxşı kitab insana can verən qandır.

***Con Milton***

Oxuya bilən hər kəs dərindən oxumağı
və beləcə daha mənalı yaşamağı
öyrənə bilər…

***Norman Kuzins***

Bəzi  kitabların dadına baxarlar…
Digərlərini bütöv udarlar… Bəzilərini isə
çeynənib həzm edərlər…

***Frensis Bekon***

Öldükdən sonra unudulmaq istəmirsinizsə,
ya oxunmağa layiq kitab yazın, ya da yazılmağa
layiq bir iş görün.

***Bencamin Franklin***

Həyatın bütün dərdlərinin
çarəsi kitablardadır…

***Viktor Hüqo***

Bir damla mürəkkəb milyonlarca
insanı düşündürə bilir.

***Lord Bayron***

Oxuyun və kitabı həyatınızın mənası edin!

***Taha Kıvanç***

Kitablar soyuq, amma etibarlı dostlardır.

***Viktor Hüqo***

Yaxşı kitablar atalarını əbədiləşdirən
övladlar kimidir.

***Əflatun***

Həyatı xoş etmək üçün 3 şey lazımdır:
Tanrının köməyi, kitab və bir dost…

***Lakordye***

Evdə kitab olanda adam təkliyini unudur.

***N.K.Krupskaya***

Yaxşı kitab oxumayan adam cahil qalacaq.

***Mark Tven***

Dünyanı idarə edən qələm,
mürəkkəb və kağızdır.

***Conatan Svift***

Oxuduğumuz kitab yaxamızdan
yapışıb bizi silkələmirsə, nəyimizə lazım?

***Frans Kafka***

Oxuduğumuz kitab, bizi fikrən yüksəldib,
içimizi yaxşı duyğularla doldurmalıdır.

***Aleksandr Pope***

Kitab nəsillərin bir-birinə vəsiyyətidir.

***A.Gertsen***

Kitab elə bir zəmidir ki, ondan hamı
yesə də qurtarmaz.

***Nizami Gəncəvi***

Mütaliə adamı bilikli, söhbətcil,
hazırcavab edir.

***Frensis Bekon***

Kitabsız bir ömrün nə mənası var?

***Səməd Vurğun***

Çox oxuyan yox, faydalı kitabları oxuyan
əsil alim ola bilər.

***K. Aristinn***

Kitab insan ruhunun müqəddəs yazısıdır.

***M.Qorki***

Kitab yolunda hər şeydən keçərəm.

***Y.V.Çəmənzəminli***

Kitabı ürəkdən sevin! O, nəinki
sizin yaxşı dostunuz, həm də sadiq
yoldaşınızdır.

***M.A.Şoloxov***

Mütaliənin yaşı olmaz.

***Naməlum***

Kitab bilik xəzinəsidir.

***Ərəb atalar sözü***

Heç bir gəmi bizi kitab qədər
uzağa apara bilməz.

***Çin atalar sözü***

Heç bir əyləncə mütaliə qədər ucuz və ə
təsirli ola bilməz.

***Umberto Eko***

Ən köhnə kitab belə onu oxumamış
insan üçün yenidir.

***Pyer Laqerkvist***

Kitabı rəfə deyil, beyninizə yerləşdirin.

***Mirzə Şəfi Vazeh***

Kitab yorulmayan müəllimdir.

***Marsel Prust***

Mütaliə zövqünü dünyanın heç
bir xəzinəsinə dəyişmərəm

***Qibbon***

Öyrənin və oxuyun. Ciddi kitablar oxuyun.
Qalanı həyatın işidir.

***F.M.Dostoyevski***

Mümkün olsaydı da yurdumdakı
meyxanələri həp kütübxanə yapardım.

***Hüseyn Cavid***

Kitab insanda görmədiyim, bilmədiyim
cəhətləri mənə sübut etmək qüdrətinə malikdir.

***M.Qorki***

Kitabları ancaq hədiyyə edin. Çünki
oxumağa verdikləriniz ya itəcək,
ya da cırılacaq.

***İspan atalar sözü***

Oxumaq müstəqilliyin açarıdır.

***Volter***

İnsanı zor tətbiq etməklə deyil, mütaliə ilə ağıllandırmaq olar.

***Cordano Bruno***

Kitabxanalar çoxaldıqca, həbsxanalar azalar.

***Seneka***

Heç kimə kitab verməyin. Çünki mən kitabxanamı oxumaq üçün alıb qaytarmadığım kitablardan qurmuşam.

***Anatol Frans***

Kitab elmlərin nəticəsi olmalıdır,
elmlər kitabın yox.

***Frensis Bekon***

Əsil təhsil yalnız mütaliə ilə əldə edilir.

***N.A.Rubakin***

Kitab ruhu qidalandırır, insanı ucaldır və möhkəmləndirir.

***U.M.Tekkerey***

Kitab həyatın ən uzaq və qaranlıq yollarında insana işıq bəxş edən əfsanəvi çıraqdır.

***A.M.Upit***

Kitab ol, hamıya açılma; qoy səni ancaq anlayanlar oxusun!

***Əbu Turxan***

Kitab insan üçün mənəvi qidadır.

***Frensis Bekon.***

Dünya eyni məzmunda, amma müxtəlif dillərdə yazılmış üç kitabdan ibarətdir: Müqəddəs kitab, təbiət və əql. Bunlar adətən ayrı-ayrılıqda oxunur. Amma onların eyni kitab olduğunu çox az adam dərk edir.

***Əbu Turxan***

Təbiət kitabı nağıl dünyasını xatırladır;  axırıncı otağa çatanda, yenə qırx qapı açılır.

***Əbu Turxan***

Kitab oxumayan düzgün fikirləşə bilməz.

***D.Didro***

Elm əvvəlcədən yazılmış kitabdır. Və alimlər onu yazmağa deyil, oxumağa çalışmalıdırlar.

***Əbu Turxan***

Elm Təbiət kitabını oxuyur və öyrəndiklərini təbiətin öz üzərində sınaqdan keçirir.

***Əbu Turxan***

Kitab bilik bağçasıdır.

***Hz. Əli***

Kitablardan təsəlli alan bir insana,
heç bir təsəlli fayda etməz.

***Hz. Əli***

Ən yaxşı kitab sənin qəlbini
vərəqləyən kitabdır.

***Əbu Turxan***

Ordu torpaqları, kitab könülləri fəth edir.

***Əbu Turxan***

Əsərlərimlə ölümsüzlüyə ucalmaq istəyirəm.

***Alessandro Ankona***

Alim unutdu, qələm unutmadı.

***Mustafa Kamal Atatürk***

Dünyaya ən çox işıq verən şey
mətbəə mürəkkəbidir.

***Onore de Balzak***

Kitab dünyaya bənzər: bəzən güldürür,
bəzən düşündürür.

***Cozef Fuç***

Qələm qılıncdan daha güclüdür.

***Uilyam Bulmer***

Unutqanlığımızı aradan qaldıran
yeganə şey kitabdır.

***Ernest Dinnet***

Dünya kitabların sayəsində işıqlıdır.

***Ralf Emerson***

Dəyərli kitablar oxuyun ki, dəyər qazanıb
başqalarının işinə yarayasınız.

***Cefri Fenton***

Kitab xəyalən ən uzaq məsafələri belə qət etməyə kömək edir.

***Anatol Frans***

Mənə kitablarını göstər, övladlarının kim olduğunu deyim.

***Anatol Frans***

Dincəlmək üçün kitablı otaqları seçin.

***Con Qay***

Təbiət hər səhifəsi məna dolu bir kitabdır.

***İohan Höte***

Sənin bir gecədə oxuduğun kitabı yazmaq üçün mən illərlə vaxt sərf edib saçlarımı ağartmışam.

***Tomas Qonzaqa***

Kitablar sayəsində yaşadım.

***Maksim Qorki***

Kitab insanların aynasıdır.

***Tomas Haksley***

Oxuduğum kitablardan ən çox bəyəndiyimi soruşsanız “anamdır” deyərdim.

***Avraam Linkoln***

Hökumətsiz yaşaya bilərsiniz,
amma kitabsız əsla...

***Avraam Linkoln***

Kitabın unutdurmayacağı dərd yoxdur.

***Monteskyö***

Dəyərli kitab, oxucusuna hörmət
edən kitabdır.

***Corc Naqler***

Anamız olmasaydı bədənimiz, kitab olmasaydı
ruhumuz inkişaf etməzdi.

***Culius Plüker***

Yaxşı kitab, yaxşı dost kimidir.

***Fransua Ponsar***

İyirminci əsrin inkişafının təməli kitabdır.

***Franklin Ruzvelt***

Kitab bizi əsil gerçəkliyə aparan
ölməz alimdir.

***Franklin Ruzvelt***

Sanki kitablar insanlara təsəlli
vermək üçün yaranıblar.

***Avqust Senoa***

Şeytanın işinə yarasaydı bütün dini kitabları oxuyardı.

***Uilyam Şekspir***

İnsanı dar gündə qoymayan yeganə dost kitabdır.

***Samuel Smils***

Kitab-insanların düşüncələrini birləşdirən mənəvi bağdır.

***Samuel Smils***

Kitab hirslənməyən müəllimə bənzər.

***İngilis atalar sözü***

Kitab bilik xəzinəsinə bənzər, içinə
daxil olun.

***Samuel Smils***

Dəyərli kitablar əbədi yaşamaq üçün doğulur.

***Samuel Smils***

Kitab düşüncədən sonra ən yaxın dostdur.

***Corc Stal***

Kitab sahibi olmaq gözəl, bilik sahibi olmaqsa
ondan da gözəldir.

***Çin atalar sözü***

Kitab cəmiyyətin dəyəridir.

***Volter***

Pis kitab oğru kimidir: vaxtınızı oğurlayar.

***İtalyan atalar sözü***

Boş vaxtınızı doldurmaq üçün deyil, öyrənmək üçün mütaliə edin.

***Aristotel***

Mütaliə insana yaxşı danışma və anlama bacarığı verir.

***Frensis Bekon***

Mütaliə insanları pis əməllərdən qoruyur.

***Rene Dekart***

Böyük həvəslə mütaliə etməklə, yorğunluğu çıxartmaq üçün mütaliə etməyin fərqi çoxdur.

***Çarlz Dikkens***

Oxuyacağınız kitabı, dostunuzu seçdiyiniz kimi seçin.

***Corc Dillon***

Bir gün kitab oxumasam ağlımı itirərəm.

***II Fridrix***

Əlinizə keçən hər kitabı oxumağın
faydası yoxdur.

***Çarlz Marden***

Kitab əxlaqi qida mənbəyidir.

***Culius Plüker***

İki cür oxucu var: biri öyrənmək üçün oxuyar,
digəri unutmaq üçün.

***Frensis Merion***

Oxuyub əməl etməmək, tarlanı şumlayıb
toxum səpməməyə bənzər.

***Cerald Messey***

Mütaliə etmək-kədərli və sıxıntılı anları zövq və ləzzətə çevirməkdir.

***Alan Milne***

Təcrübə ilə iyirmi ildə öyrənəcəyimizi, kitab oxumaqla bir ilə öyrənə bilərik.

***Uilyam Porter***

Bir cəmiyyətin mədəniyyətini və sənətini anlamaq üçün həmin toplumun kitablarını oxumalıyıq.

***Samuel Smils***

Həyatımız çox qısa olduğundan yalnız
dəyərli kitabları oxumalıyıq.

***Çarlz Rollin***

Kitab bizi alim və dahilərlə həmsöhbət edir.

***Samuel Smils***

Oxucu dəyərli kitabları, yazıçı isə
bütün kitabları oxumalıdır.

***Bernar Şou***

Mütaliəni sevməyənə doqquz
müəllim də azdır.

***Türk atalar sözü***

Kasıb insanlar böyük elm xadimlərinin fikirlərini əldə edə bilərlər, yetər ki, oxumağı bacarsınlar.

***Samuel Smils***

İnsanlar mütaliəni vərdişə çevirsələr xoşbəxt olarlar.

***Sokrat***

Mütaliə insanı bütövləşdirir, insanlarla danışmağa hazırlayır, yazmaq isə yetkinləşdirir.

***Frensis Bekon***

Keçmişdən və gələcəkdən xəbərdar
olmaq istəyən adam, ən azı yüz kitab
oxumalıdır.

***Çin atalar sözü***

Dünya dəyərli bir kitaba bənzər.
Oxumağı və yazmağı bacarmayan dünyadan
xəbərsiz qalar.

***Anonim***

Kitab cəhalət bataqlığından yeganə qurtuluşdur.

***Con Steynbek***

Mütaliə ehtiyacı barıt kimidir, alovlanınca sönməz.

***Viktor Hüqo***

Mütaliə zövqünü Hindistan xəzinələrinə də dəyişmərəm.

***E. Gibbon***

Mütaliə bir dərman, oxuduqlarını anlamaq isə şəfadır.

***R. Necdət Evrimər***

Oxumaq qidadır

***Viktor Hüqo***

Oxumaq, qadın və kişi hər müsəlmana fərzdir.

***Hz. Məhəmməd peyğəmbər (s.ə.s)***

Mütaliə etsən hər insanın bir kitab olduğunu görəcəksən.

***V. Elleri Çanninq***

Ömrünün dörddə üçünü oxumaqla keçirən insan, şübhəsiz namuslu insandır.

***Didro***

Oxumaq yaşamaqdır.

***Naməlum***

Həyatımda iki gün kitab oxumamışam: ailə qurduğum gün və atamın öldüyü gün.

***Razi***

Dəyərli kitabları tələsik oxumayın. Çünki bu işiniz, məşhur bir muzeyi qaçaraq gəzməyə bənzər.

***Naməlum***

Kitablar doğru sözlər və nümunələrlə doludur. Oxuduqca özümüzü onlara görə nizamlamaq istərik.

***Naməlum***

Kitabxananız şəxsiyyətinizin aynasıdır.

***Naməlum***

Özünüzü gücsüz və tək hiss etdiyiniz zaman kitabxanalara qaçın.

***Naməlum***

Spinozanın kitabxanasında 60 kitab varmış. Deməli, yaxşı seçilmiş 60 kitab, dahi bir filosof olmaq üçün kifayət edərmiş.

***Naməlum***

Zəka tarlası kitab ilə əkilər və biçilər.

***Naməlum***

Uşaqlarınızın sabah söz sahibi olmasını istəyirsinizsə, bu gündən onlara yaxşı kitablar hədiyyə edin.

***Hz. Əli***

Mütaliə yazıçının düşüncə və duyğularına varmaq, onunla mübahisə etmək deməkdir.

***Naməlum***

Kitab etibarlı liman, səhifələr isə dənizdir. Bu dənizə baş vurduqmu, fırtınalardan qorxmarıq.

***Naməlum***

Əndəlüsdən bizə qalan otuz kitab sayəsində atomu parçalaya bildik. Əgər bir milyon kitabın yarısı qalmış olsaydı, çoxdan kosmosda qalaktikalar arasında səyahət edirdik

***E. Küri***

Ağıllı adam kitablardan birbaşa həyatı oxuyur.

***Lin Yutanq***

Hər bir kitab bir toxumdur.

***Naməlum***

Mütaliə ilə əvvəlcə doğrunu fəhm edin. Doğrunu bilsəniz səhvi anlayarsınız.

***Farabi***

Kitablar illər ötdükcə
qocalmayan, köhnəlməyən yeganə dostlarımdır.

***Moris Rostan***

Kitabın qiyməti onun dəyərinə
bərabər olmalıdır.

***Ceyms Brüs***

Yaxşı kitablar yazın ki, kəsilmiş ağaclara heyif
olmasın.

***İngilis atalar sözü***

Oxumaq istədiyiniz kitab yazılmayıbsa, özünüz yazın.

***Toni Morrison***

Yaxşı kitabların sonu olmur.

***R. D. Kyuminq***

Mən yaxşı kitabları ətrindən tanıyıram.

***Corc Robert Qissinq***

Kitabları oxumamaq onları yandırmaqdan daha ağır cinayətdir.

***Rey Bredberi***

Elektron kitabxanalar ənənəvi kitabxanaların gələcəyə körpüsüdür.

***Abuzər Xələfov***

Kitabxana övladlarımıza ən qiymətli mirasdır.

***Ostin Birrell***

Kitabsız ev pəncərəsizdir.

***Henrix Mann***

Müdrik insan kitabları həyatı qədər sevər.

***Lin Yutanq***

Oxuyan cəmiyyət, bilikli cəmiyyətdir

***Viktor Hüqo***

Kitab düşüncənin aynasıdır.

***Yekaterina***

Kitablar kamilliyi yayma vasitəsidir.

***Yan Komenski***

Yalnız o kitablar hörmətə layiqdirlər ki, həyatın mənasını dərk etməyə, insanların istəklərini anlamağa və davranışlarını başa düşməyə kömək edirlər.

***Maksim Qorki***

Bəziləri kitabı onun həcminə görə qiymətləndirir. Sanki kitab ağlın deyil, qol əzələlərinin inkişafı üçündür.

***Qarsian-i-Morales***

Kitab hər biliyin alfa və omeqası, bütün elmlərin başlanğıcının əvvəlidir.

***Stefan Sveyq***

Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi və ağlı, dünya və insanlıq sevgisiylə dolduracaq.

***Maksim Qorki***

İnsanlar arasında olduğu kimi, kitablar arasında
da özümüzü pis və ya yaxşı hiss
edə bilərik.

***K. Helvesi***

Kitablar ölməzlik xassəsinə malikdirlər.
Onlar insan fəaliyyətinin ən uzunömürlü
məhsuludur.

***Smayls S.***

Ən yeni kitab-köhnə həqiqətləri sevdirməyi
bacaran kitabdır.

***Vovenarq***

Kitabın yaradıcısı insan, taleyini
müəyyənləşdirən isə cəmiyyətdir.

***Viktor Hüqo***

Biliksiz adam okeanda azan yelkənsiz gəmiyə
bənzər: ya sahilə çırpılıb parçalanar, ya tufana
düşüb batar.

**Pifaqor**

Savadlı adam mütaliə etmirsə, təkrar
savadsızlığa məhkumdur. İnsan gərək bütün
ömrü boyu maariflənsin.

***A.V.Lunaçevski***

Ömrünü mütaliəyə sərf edən adam
heç vaxt ölmür.

***Hz. Məhəmməd Peyğəmbər (s.ə.s)***

Biliyinə qürrələnmə,
bilmədiklərin bildiklərindən
qat-qat çoxdur.

***Hümam Təbrizi***

Başqalarından öz qüdrətinlə üstün olmaqdansa,
biliyinlə üstün olmaq məsləhətdir.

***Makedonyali İskəndər***

Kitabsız qalmaq çörəksiz qalmaqdan çətindir.

***V.Kubarev***

Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır.

***Jan Jak Russo***

Yazana zəhmət verməyən kitab, oxuyana da zövq verməz.

***G. Conson***

Oxumaq sənətlərdən ən ağırı, fəqət ən faydalısıdır.

***Höte***

*Elm ilə, ədəblə tapılır şəraf,*
*Mirvari olmasa nə lazım sədəf?*

***Məhəmməd Fizuli***

*Mən öyrətdim onlara, öyrətdim bilik nədir,*
*Oxumağı, saymağı dedim bir xəzinədir.*

***Esxill***

*Yarat bir əsər ki, adın ucalsın*
*Sən ölüb gedərkən yerində qalsın*

***Ə. Cami***

*Bilmədiyi şeyi soruşsa hər kəs,*
*Mənzilə düz gedər, yolu itirməz*

***Sədi***

*Hər sözü bir ulduz, bir şəffaf almaz,*
*Mənalar dünyası qaranlıq deyil,*
*Bu böyük kitablar yaranır az-az,*
*Çünki ömürlükdür, bir anlıq deyil*

.

***S. Vurğun***

*Dünyada nə qədər kitab var belə*
*Çalışıb əlləşib gətirdim ələ*
*Oxudum, oxudum, sonra da vardım*
*Hər gizli xəznədən bir dürr çıxardım.*

***Nizami Gəncəvi***

*Bilik öyrənməyi ar bilən hər kəs,*
*Dünyada mərifət qazana bilməz.*

***Nizami Gəncəvi***

*Kamil ol şəxsdir ki, qoya yerində əsər*
*Əsəri olmayanın yerində boş yellər əsər.*

***Hz. Hadimi***

*Kitab işıq saçar bir günəş kimi*
*Kitabdır arifin könül həmdəmi.*

***Ə.Cami***

Cahil birinin yanında kitab kimi səssiz ol!

***Mövlana Cəlaləddin Rumi***

Dünyanı qaranlıqdan qurtaran kitabdır.

***N.Ataç***

İnsan olmaq üçün oxumaq gərəkdir!

**Aşıq Veysəl**

Mədəniyyətin təməli kitabdır.

***Naməlum***

Kitabın təsirini gördükdən sonra, hökmdarlar da kitab yazmağa başladılar.

***Alfred de Viqni***

Köhnə palto geyinsəniz də olar, yetər ki, yeni kitaba pulunuz çatsın.

***Ostin Felps***

Kitablar necə də çoxmuş!?. Zaman
necə də azmış!

***Frenk Zappa***

Bıçağın bülövə ehtiyacı olduğu kimi, ağlın da
kitaba ehtiyacı var.

***Corc Martin***

Mənə elə gəlir ki, Cənnət kitabxanaya bənzəyir.

***Xose Lui Borxes***

Kitablar başqa aləmləri seyr etmək istəyənlər
üçündür.

***Mark Tven***

Kitabxanalar senzuradan başqa hamıya açıq olmalıdır.

***Con Kennedi***

Əgər siz yalnız başqalarının oxuduğu kitabları oxusanız, elə onlar kimi də düşünəcəksiniz.

***Haruki Murakami***

Əvvəlcə ən yaxşı kitabları oxuyun. Çünki bütün kitabları oxumağa onsuz da vaxtınız qalmayacaq.

***Anri David Turo***

# İstifadə olunmuş ədəbiyyat:

1. Aforizmlər: seçilmişlərdən seçilmişlər. Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında, Bakı, Çaşıoğlu, 2012, 560 səh.

2. Əli Polad. Üç min ilin hikməti. Bakı: "Yurd" Nəşriyyat-Poliqrafiya Birliyi, 2004, 720 səh.

# İDRAK XƏZİNƏSİ

*Kitab və mütaliə haqqında aforizmlər, iqtibaslar, hikmətli sözlər*

*Cavid Cəfərov*

*(Azərbaycan dilində)*

*Nəşriyyat redaktoru:* ***C.A.Cəfərov***

*Texniki redaktor:* ***A.A.Xankişiyev***

Çap tarixi: 01.04.2013.
Formatı: $60x84^{1}/_{16}$. Həcmi: 5,5 f.ç.v. Ofset çapı. Ofset kağızı.
Tiraj: 300. "Proqres" Nəşriyyatında çap olunub.
Ünvan: Bakı ş. İ.Qutqaşınlı 97/2.